**BSU-nun baş müəllimi Dadaşova Şəfəqin EİF-Mob-2-2013-4(10)-13/12/5 saylı qrant layihəsi əsasında Avstriyanın Vyana şəhərində 31 oktyabr-3 noyabr tarixində keçirilən “İABA Beyond the Subject. New Developments in Life Writing” adlı Beynəlxalq konfransda iştirakı barədə**

**HESABATI**

Konfrans Vyana Universitetinin Ludviq Boltzman İnstitutu tərəfindən təşkil olunmuşdu. Mənim çıxışım “Avtobioqrafiya – alternative axtarışında” mövzusunda idi və 1 noyabr cədvəlinə salınmışdı. Məruzədə Şərq və Qərb ədəbiyyatında özünüidentifikasiya və Azərbaycan ədəbiyyatında müəllifin mövqeyi barədə danışılırdı. Məruzədə Azərbaycan ədəbiyyatının xüsusiyyətləri haqda məlumat verilir, o, dünya ədəbiyyatı kontekstində təqdim olunurdu.

Konfrans zamanı London Kral Universitetindən Max Saunders, Almaniya Maynz Universitetindən Alfred Hornunq, Almaniya Berlin Universitetinin bir neçə professoru ilə fikir mübadiləsi aparıldı, Azərbaycan ədəbiyyatının özünəməxsusluğu, Şərq və Qərb elementlərinin təmsil olunması barədə danışıldı. Bu konfransda iştirak etmək üçün dünyanın hər yerindən tədqiqatçılar gəlmişdi. Ümumi siyahı hesabata əlavə olunmuşdur.

Konfrans Milli kitabxanada şam yeməyi ilə başa çatdı. Burada da söhbətlər zamanı ədəbiyyatımıza maraq oyatmaq, onu araşdırmağa sövq etmək üçün müxtəlif misallar gətirərək, gələcək tədqiqatlarda Azərbaycan ədəbiyyatı materiallarına da istinad etməyin ədəbi proses üçün faydalı ola biləcəyini təbliğ etməyə çalışdım.

Şəfəq Dadaşova

06.11.2013